*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 fevral 2017-ci il № 15 (2132) Qiymətı 25 qəpik


## Düşmənin cəbhəboyu təxribat törətmək cəhdlərinin qarşısı qətiyyətlə alınır



*Ən müasir silah və texnika ilə təmin edilmiş, yüksək döyüş hazırlığına malik Azərbaycan Silahlı Qüvvələri bu gün düşmənlə təmas şəraitində ərazilərimizin təhlükəsizliyinin keşiyini çəkir. Ordumuzun bölmələri işğalçı Ermənistanın silahlı birləşmələrinin istənilən təxribat xarakterli hərəkətlərinin qarşısını cəsarət və qətiyyətlə alır. Buna baxmayaraq, düşmən bu günlərdə yenə ön xətdə təxribat törətmək istəyib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 21-də Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu növbəti dəfə təxribat törətmək üçün mövqelərimizə basqın etməyə cəhd göstərib.

Onun fəaliyyəti düşməni daim izləyən bölmələrimiz tərəfindən əvvəlcədən aşkar edilərək qabaqlayıcı atəş zərbələri endirilib. İtki verən Ermənistan ordusunun bölmələri geri çəkilməyə məcbur edilib.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycanın Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı bəyanat yayıb

Azərbaycanın Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Fevralın 26-da Xocalı soyqırımının 25-ci ildönümü tamam olur. 1991-ci ilin oktyabrından etibarən şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tam mühasirəyə alınmışdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Xocalı şəhərinə müxtəlif istiqamətlərdən hücum edildi. Nəticədə Ermənistan silahlı qüvvələri keçmiş Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) 366 saylı motoatıcı alayının köməyi ilə Xocalının işğalını həyata keçirdilər. İşğalçılar Xocalını darmadağın etdilər və xüsusi amansızlıqla onun dinc əhalisinin qırğınını həyata keçirdilər. Nəticədə 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlı olmaqla, 613 mülki şəxs öldürüldü, 1000 nəfər yaralandı və 1275 nəfər əsir götürüldü. İndiyə qədər Xocalının 150 sakini itkin hesab olunur. Sadəcə azərbaycanlı olduqları üçün Xocalının mülki əhalisinin məqsədli şəkildə qırğını həyata keçirildi.

Ermənistan silahlı qüvvələri tərəfindən sakinlərin kütləvi öldürülməsi, dərilərinin soyulması, başlarının kəsilməsi, hamilə qadınların süngülərə keçirilməsi və cansız bədənlərin eybəcər hala salınması Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, Ermənistandan da daxil olmaqla çoxsaylı müstəqil mənbələr, yerli və beynəlxalq kütləvi informasiya vasitələri və bu faciənin şahidləri tərəfindən əsaslı şəkildə sənədləşdirilib.

**(Ardı 3-cü səhifədə)**

## "Xocalı soyqırımını törədən cinayətkarlar Azərbaycan xalqı qarşısında cavab verəcək"

*Xocalı soyqırımı xalqımızın ən böyük faciələrindən biridir. Bu faciə xalqımıza qarşı törədilmiş dəhşətli soyqırımı siyasətlərindən biridir. Bu siyasətin 200 ildən artıq yaşı var. Ötən əsrlərdən bəri erməni terrorçuları tərəfindən soydaşlarımıza qarşı dəhşətli soyqırımı cinayətləri törədilib. Milyonlarla soydaşımız öz yurd-yuvasından qovulub, deportasiya edilib.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Xocalı soyqırımının 25 illiyinə həsr edilən plenar iclasda Milli Məclisin sədri Oqtay Əsədov deyib.

Oqtay Əsədov bildirib ki, Azərbaycan dövləti Xocalı soyqırımının dünya miqyasında tanınması üçün mühüm işlər görür. Bu işlərin həyata keçirilməsində Milli Məclisin də böyük rolu olub. Bunun nəticəsidir ki, onlarla ölkənin parlamentində Xocalı soyqırımı tanınıb, bu haqda müvafiq qərarlar qəbul edilib. Deputatlarımız bütün beynəlxalq tədbirlərdə Azərbaycan həqiqətlərini, o cümlədən Xocalı soyqırımını gündəmə gətirirlər.

"Milli Məclis Xocalı soyqırımının 25 illiyinə həsr olunan yazılı materiallar hazırlayıb. Azərbaycan xalqı bu cür faciələri heç zaman unutmayacaq. Bu vəhşilikləri törədən cinayətkarlar Azərbaycan xalqı qarşısında cavab verəcək. Azərbaycan Prezidenti bu istiqamətdə qətiyyətli siyasət yürüdür. Hər birimiz əminik ki, işğal altında olan hər bir qarış torpağımız tezliklə azad olunacaq", - deyə Oqtay Əsədov qeyd edib.

# Düşmənin cəbhəboyu təxribat törətmək cəhdlərinin qarşısı qətiyyətlə alınır





(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Silahlı Qüvvələri heç bir itki verməyib və hazırda bütün cəbhəboyu əməliyyat şəraitinə bölmələrimiz tərəfindən tam nəzarət edilir.

Silahlı Qüvvələrimizin cəsur kəşfiyyatçıları bir an belə sayıqlığı itirmir və bütün təmas xətti boyunca düşmən ordusunun hər bir yerdəyişməsini öz nəzarətində saxlayır. Ordu rəhbərliyinə bu günlərdə təqdim edilən kəşfiyyat məlumatları göstərirdi ki, düşmən öz qoşunlarının yenidən qruplaşdırmaq, həmçinin artilleriya sistemlərinin və digər iriçaplı texnikanın bizim müdafiənin ön xəttində cəmləşdirilmək məqsədilə tədbirlər həyata keçirir. Bu isə düşmənin məqsədinin vəziyyətin gərginləşdirilməsinə yönəldiyini qeyd etməyə əsas verir.

Cəbhədən gələn narahatedici məlumatlar təcili qabaqlayıcı tədbirlər görmək zərurəti yaratmışdı. Ona görə Ermənistan silahlı qüvvələri tərəfindən təxribatların intensivləşməsi ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonaya getdi. Eyni zamanda səfərin məqsədi müdafiənin ön xəttində bölmələrimizin döyüşə hazırlıq səviyyəsinin yerində qiymətləndirilməsi idi.

Talış kəndini, ətraf əraziləri nəzarətdə saxlayan mövqelərdə, Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi istiqamətində yerləşən bölmələrdə olan nazirliyin rəhbərliyi düşmənin ön xətt mövqelərini müşahidə edib.

Gecə saatlarında ön xətdəki bölmələrimizi yoxlayarkən, Müdafiə Nazirliyinin rəhbərliyi düşmənin kəşfiyyat-diversiya qrupunun Talış və Gülüstan istiqamətlərində təxribat törətmək cəhdlərini müşahidə vasitələri ilə izləyib.

Vəziyyətlə yerində tanış olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhənin bütün istiqamətlərində Ermənistan silahlı qüvvələrinin təxribat törətmək cəhdlərinin qarşısının qoşunlarımız tərəfindən qətiyyətlə alınması, düşmənə qarşı daha sərt və qətiyyətli cəza tədbirlərinin görülməsi üçün ön xətdə yerləşən qoşunlarımıza istiqamətlər üzrə konkret tapşırıqlar verib. Yerində verilən tapşırıqlar və dərhal görülən tədbirlər nəticəsində düşmən geri çəkilməyə məcbur edilib.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşüb, onların döyüşə hazırlıq səviyyəsini və mənəvi-psixoloji vəziyyətini yoxlayıb, həmçinin hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dövlət rəhbərliyi səviyyəsində yüksək təminata malikdir. Ordumuzun şəxsi heyəti döyüş hazırlığı sahəsində böyük nailiyyətlərə imza atıb. Ön xətdə döyüş növbəsi aparan zabit, gizir və əsgərlərimiz öz üzərlərinə düşən vəzifələri lazımınca dərk edir və qarşılarına qoyulmuş döyüş tapşırıqlarını bacarıqla yerinə yetirirlər. Bunu cəbhə bölgəsində bölmələrimizin ayıq-sayıqlığı və düşmən təxribatlarının qarşısının alınması ilə bağlı atılan addımlar da bütün dolğunluğu ilə göstərir.

Ön xətdə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim etdikdən sonra nazirliyin rəhbər heyəti süfrə arxasında əsgərlərlə söhbət edib.

**"Azərbaycan Ordusu" fotolar**
**Natiq İSAYEVİNDİR**

# Cəbhəboyu zonada yeni təlim mərkəzinin, qərargah binasının və əsgər yataqxanalarının açılışı olub



*Cəbhəboyu zonada olan Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə xəttində yeni inşa edilmiş təlim mərkəzinin, qərargah binasının və əsgər yataqxanalarının açılışında iştirak edib.*

Təlim mərkəzi haqqında məruzə edilərək bildirilib ki, burada idarəetmə məntəqəsi, qərargah binası və şəxsi heyətin yerləşdirilməsi üçün lazımi infrastruktur yaradılıb. Real döyüş şəraitinə yaxın inşa edilən, cəbhə xəttindəki vəziyyətə uyğun modelləşdirilmiş təlim nöqtələri atış çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi üçün nəzərdə tutulub.

Bununla yanaşı, mürəkkəb dağ şəraitində döyüş aparmaq, kəşfiyyat-axtarış tədbirləri həyata keçirmək, pusqular quraraq hərbi əməliyyatlar zamanı düşmənə qarşı effektiv tədbirlər görmək kimi döyüş tapşırıqlarını tədris və praktiki məşq etmək üçün təlim mərkəzində lazımi şərait yaradılıb.



Müdafiə naziri mərkəzdə təlim keçəcək şəxsi heyətin peşəkarlıq qabiliyyətinin artırılması məqsədilə mövcud olan müasir təlim üsullarının öyrənilməsi, onların döyüş hazırlığında tətbiq edilməsi və şəraitə uyğunlaşdırılması ilə bağlı müvafiq göstəriş və tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar**
**Natiq İSAYEVİNDİR**

*Ön xətdən reportaj*

# Məğrur topçular

*Zabit Baba Hətəmovla düşmənlə təmas xəttində yerləşən artilleriyanın döyüş mövqeyində görüşdüm. Bölmədə yaradılan şərait ürəkaçan idi. Burada əsgərlərin nizam-intizamı, yaşadıqları ərazinin təmizliyi diqqətimizi cəlb etdi. Zabit deyir ki, onların başlıca məqsədi mövqeləri düşməndən qorumaqdı. Bunun üçün əsgərlər yüksək döyüş vərdişlərinə yiyələniblər. Sonra əsgər yataqxanasına baş çəkdik.*



Hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması onların döyüş hazırlığının yüksəldilməsinə təsir edən başlıca amildir. Belə ki, əsgərlər taktiki məşğələlərdən və döyüş növbəsindən qayıdan əsgərlərin istirahəti üçün normal şəraitin olması vacibdir.

Zabit daha sonra bildirir ki, Müdafiə Nazirliyinin rəhbərliyi, yüksək rütbəli zabitlər tez-tez bölmədə olur, şəxsi heyətin bütün qayğılarıyla maraqlanırlar.

Budur, əsgərlər günün nizam qaydalarına əsasən məşğələ yerindədi. Leytenant Fəqan Rəşidli bildirdi ki, o, heyət üzvlərinə növbəti məşğələ keçir. Oğuz rayonunda anadan olmuş zabit Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. O, artilleriya ixtisası üzrə bilik və bacarıq qazanıb.



Fəqanın komandiri olduğu bölmədə bütün heyət üzvləri yüksək döyüş səriştəsinə malikdilər. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Afiq Abbasovun komandiri olduğu heyət isə fərqlənərək ötən tədris ilində yüksək göstəricilərlə yadda qalıb. Zabit Baba Hətəmov top komandiri haqqında danışarkən qeyd etdi ki, Afiq Abbasovun müddətli həqiqi hərbi xidməti də cəbhə bölgəsində keçib. Onun necə bacarıqlı və intizamlı döyüşçü olduğunu bölmədə yaxşı bilirlər. Xidmətini başa vurmasına az qalmış komandanlığın əmrilə artilleriya ixtisası üzrə hazırlıq kursuna göndərilib. Kursu bitirəndən sonra top komandiri vəzifəsinə təyin edilib. Onun komandiri olduğu heyət həm nizam-intizam baxımından, həm də döyüş hazırlığı sahəsində həmişə fərqlənir.

Əsgər Afiq Abbasovla təlim yerindəyik. O, ordu sıralarında xidmətinin davam etdirilməsində yaxından kömək göstərən zabit B.Hətəmova daim minnətdar olacağını qeyd etdi. Bildirdi ki, hər zaman komandirin etimadını doğrultmağa çalışır.

Tuşlayıcı Taleh Xələfov təhkim olunan silahı mükəmməl bilən əsgərlərdəndir. Sumqayıt şəhərində anadan olan əsgər bir ildən artıqdır ki, hərbi xidmətdədir. O, topun sirlərinə mükəmməl yiyələnib. Heyət komandirinin rəhbərliyi altında tez-tez çöl məşğələlərində olur, peşə vərdişlərini daha da təkmilləşdirir.

Heyət üzvlərindən Dadaş Abdulrəhimov və Həsən Havalov da bacarıqlı topçular kimi tanınır. Əsgərlərlə söhbət zamanı məlum oldu ki, onlar döyüş vərdişlərini təkmilləşdirməklə torpaqlarımızı işğal altında saxlayanlara qarşı hər an döyüşə hazırdılar.

Topçularla söhbətim olduqca xoş məcrada keçdi. Əsgərlərin üzündəki təbəssüm onların özlərinə güvənini ifadə edirdi. Döyüşçülərin vətənpərvərliyi xidmət dövründə qazandıqları vərdişlərdə öz əksini tapır. Ümid edirik ki, düşmən tapdağı altında qalan yurd yerlərimizin azad olunması uğrunda döyüşlərdə əsgər A.Abbasovun komandiri olduğu top heyəti də öz bacarıqlarını yüksək səviyyədə nümayiş etdirəcək.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmənin artilleriya atəşi nəticəsində hərbi qulluqçumuz şəhid olub

Fevralın 22-də günorta saatlarında Dağlıq Qarabağda Ermənistan silahlı bölmələri tərəfindən mövqelərimizin artilleriya atəşinə tutulması nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Xəlilov Xanoğlan İntizam oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 fevral 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 70 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Əməliyyat şəraitinə uyğun olaraq bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Azərbaycanın Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı bəyanat yayıb

**(Əvvəli 1-ci səhifədə)**

Öz müqəssirliyini utanmadan etiraf edən Ermənistanın o dövrdəki müdafiə naziri və hazırkı prezidenti Serj Sarkisyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində deyib: "Xocalıdan qabaq azərbaycanlılar düşünürdü ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdır. Biz bu stereotipi sındırdıq".

Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi qəti şəkildə sübut edir ki, Xocalının mülki əhalisinin və müdafiəçilərinin məqsədli şəkildə qırğını ayrıca və təsadüfi hərəkət olmayıb, əksinə, Ermənistanın geniş yayılmış və sistemli şəkildə həyata keçirilmiş mənfur və amansız etnik təmizləmə siyasətinin tərkib hissəsi olub.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüzün fonunda Ermənistan tərəfindən törədilmiş müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyalarının, Soyqırımı Cinayətinin Qarşısının alınması və Cəzalandırılması haqqında Konvensiyanın, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın, İşgəncələrə və Digər Qəddar, Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Davranış və Cəza növlərinə qarşı Konvensiyanın, İrqi ayrı-seçkiliyin bütün formalarının Ləğv edilməsi haqqında beynəlxalq Konvensiyanın, Uşaq Hüquqları haqqında Konvensiyanın və İnsan Hüquqlarının və Əsas Azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Dövlət kimi Ermənistan Respublikasının məsuliyyəti ilə yanaşı, beynəlxalq cinayət hüququna əsasən silahlı münaqişənin gedişində, eləcə də Xocalıda törədilmiş bu kimi əməllər beynəlxalq cinayət hesab olunur və ona görə də bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Avropa İnsan Hüquqları Məhkəməsinin 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlibdir.

15-dən çox dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair çoxsaylı qətnamə və qərarlar qəbul ediblər.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən Xocalıda törədilmiş soyqırımı və insanlıq əleyhinə cinayət hərəkətlərinə münasibətdə həqiqət və ədalətin bərpasına dair həmrəyliyini yüksək qiymətləndirir.

Xocalı soyqırımı öz hüquqi qiymətini almalıdır. Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, həmçinin mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü fonunda törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsinə gətirilməsinə xidmət edəcək.

Xocalı Soyqırımının 25-ci ildönümünü anaraq, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən Xocalıda uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla, mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş insanlıq əleyhinə cinayətləri və soyqırımı aktını pisləməyə və tanımağa çağırır".

AZƏRBAYCAN ORDUSU

# XX əsrin faciəsi - Xocalı soyqırımı

*1992-ci il fevralın 25-dən 26-sına keçən gecə Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli qətliam Azərbaycanın tarixinə qanlı hərflərlə yazıldı. Ümummilli liderimiz Heydər Əliyev Xocalı soyqırımının on illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyirdi: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".*



Bu günlərdə respublikamızın bütün bölgələrində, idarə və təşkilatlarında olduğu kimi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) aparatında da soyqırımın 25 illiyinə həsr olunmuş anım tədbiri keçirildi. Tədbirdə millət vəkilləri, dövlət qurumlarının, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Xocalı soyqırımı qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Tədbiri açıq elan edən İnsan Hüquqları üzrə müvəkkil Elmira Süleymanova bildirdi ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində ermənilərin törətdikləri cinayət aktı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. "Xocalı faciəsinin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verərək fevralın 26-sını "Xocalı soyqırımı günü" elan edib. Bütün sahələrdə Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev üzləşdiyimiz hərbi münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini daim qətiyyətlə vurğulayır, soyqırımı cinayətini törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının vacibliyini bəyan edir".

Ombudsman onu da qeyd etdi ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və geniş vüsət alan "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır. Onun sözlərinə görə, artıq 14 ölkə Parlamenti Xocalı soyqırımını beynəlxalq hüquq normaları müstəvisində tanıyıb və ABŞ-ın 21 ştatının qanunverici orqanlarında müvafiq qətnamələr qəbul olunub.

"Dərdi çəkən bilər" məsəli ilə sözə başlayan Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov artıq 25 ildir qaysaqlamayan yaramız olan Xocalı faciəsinin bəşəriyyəti sarsıdan qanlı cinayət olduğunu bildirərək qeyd etdi ki, faciə zamanı şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanlığa sığmayan qəddar işgəncələrə məruz qalıb. "150 nəfərin taleyi hələ də məlum deyil. 8 ailə tamamilə məhv edilib. Bu rəqəmlər insanı dəhşətə gətirir... Bu gün xocalılılar dövlətimizin apardığı siyasətə inanır və soyqırımı törədənlərin layiqli cəzalarını alacağına əmindirlər".

- Xocalı haqqında danışmaq çox çətindir, - deyən Milli Məclisin deputatı Elman Nəsirov XX əsrin sonunda baş vermiş bu faciənin təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri olduğunu qeyd etdi. Ermənilərin bu soyqırımı törətmək üçün əvvəlcədən plan cızdıqlarını bildirən millət vəkili Xocalı faciəsini beynəlxalq terrorizm cinayəti adlandırdı.

Millət vəkili beynəlxalq tədbirlərdə, çoxsaylı konfrans və sərgilərdə Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında ölkəmizin birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri olduğunu vurğuladı.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun xüsusi istintaq şöbəsinin rəisi Rauf Məmmədov da Xocalı soyqırımı günahkarlarının hələ də cəzasız qaldıqlarını təəssüf hissi ilə qeyd edərək Hərbi Prokurorluğun inzibati binasında yaradılan Memorial Soyqırımı Muzeyinin Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət etdiyini bildirdi.

Milli Məclisin deputatları Musa Qasımlı, Hikmət Məmmədov, Sahibə Qafarova və Sevinc Fətəliyeva Xocalı soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsinin vacibliyini bildirdilər. Ermənistanın Xocalı soyqırımı ilə təkcə Azərbaycana deyil, bütün bəşəriyyətə qarşı ağır cinayət törətdiyini qeyd etdilər.

Xocalı sakinləri olan yazıçı, jurnalist, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri Səriyyə Müslümqızı və Murad Məmmədov şahidi olduqları dəhşətli hadisələrlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər.

Sonda Xocalı soyqırımı ilə bağlı "Onlar heç vaxt böyüməyəcəklər" adlı sənədli film, habelə Ombudsman təsisatı tərəfindən təşkil edilmiş rəsm və kitablar sərgisi nümayiş etdirildi.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

---

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi və Hərbi Dəniz Qüvvələri Komandanlığının birgə təşkilatçılığı ilə 26 fevral Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunan anım mərasimi keçirilib.*



1992-ci ilin əvvəllərində Azərbaycanda hakimiyyət səriştəsizliyi, bunun nəticəsi kimi müəyyən ambisiyaların genişlənməsi Xocalının da müdafiəsində müəyyən boşluqlar yaratmışdı. 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə Ermənistan silahlı qüvvələri, Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki erməni silahlı dəstələri, sabiq SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal etdi. Həmin gecə 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla öldürüldü. Bu faciə misli görünməmiş soyqırımı idi...

Mərkəzi Zabitlər Evinin foyesində tədbir iştirakçıları əvvəlcə Xocalı soyqırımını əks etdirən "Xocalıya ədalət" Beynəlxalq kampaniyasına qoşulaq, "Heç kim, heç nə heç vaxt unudulmayacaq!" sərgiləri ilə tanış olublar.

Sonra ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın müstəqilliyi, azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qeyd etmək lazımdır ki, XX əsrin ən dəhşətli soyqırımı sayılan Xocalı qətliamı Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi bəşər tarixinin faciələri ilə eyni sırada dayanır. Xocalı soyqırımı Azərbaycan tarixində ən dəhşətli və faciəli səhifələrdən biridir.

Mərkəzi Zabitlər Evinin hərbi qulluqçusu gizir Vüsal Ağayev çıxış edərək Xocalı faciəsindən ətraflı danışdı və statistik faktları diqqətə çatdırdı.

Anım mərasimi Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında "Xocalı - əsrin faciəsidir" adlı ədəbi-bədii xoreoqrafik kompozisiyanın təqdimatı ilə davam edib. Tədbir



iştirakçıları Xocalı müsibətini musiqili ədəbi-bədii kompozisiya kimi maraq və həyəcanla izləyiblər. Əliyalın insanların gülləbaran edilməsi səhnələri, "And içirik", "Vətən anadır, səni anan çağırır" mahnıları, "Xocalı qisasa çağırır bizi" "Xocalının qisasını al, qayıt" kimi poeziya nümunələri peşəkarlıqla təqdim olunub.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# XX əsrin faciəsi - Xocalı soyqırımı

*C.Naxçıvanski adına Hərbi Liseydə Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar tədbir keçirildi.*



Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Erməni işğalçılarının Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımını əks etdirən sənədli film nümayiş etdirildi. Sonra polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək bildirdi ki, dünyanı sarsıdan dəhşətli faciələrdən birini ermənilər 1992-ci ildə Xocalıda törətdilər. "Xocalı faciəsindən 25 il keçir. 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə dislokasiya yeri Xankəndi şəhəri olan 366-cı motoatıcı alayının zirehli texnikasının və şəxsi heyətinin dəstəyi ilə Xocalı şəhəri üzərinə hücuma keçdilər. Bir gecənin içində şəhər yerləyeksan edildi. Evlər yandırıldı, insanlar amansızcasına qətlə yetirildi. Ermənilərin hücumu çox qəfil və güclü oldu. 25 min əhalisi olan Xocalı şəhəri çox mühüm strateji əhəmiyyətə malik coğrafi məkanda yerləşirdi. Buna görə də düşmən nəyin bahasına olursa-olsun, Xocalını işğal etməyə çalışırdı".

Zabit çıxışına davam edərək qeyd etdi ki, Xocalı faciəsinin dünyada təbliği üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kompaniyası həyata keçirilir. "Bu məqsədlə Xocalı faciəsindən bəhs edən kitablar ingilis, fransız, rus və dünyanın başqa dillərinə tərcümə edilir, sənədli filmlər çəkilib xarici ölkələrin ictimaiyyətinə təqdim olunur. Bu gün Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras və ABŞ-ın neçə-neçə ştatı Xocalı faciəsini tanıyıb. Bütün dünya görür ki, Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla yanaşı, beynəlxalq terrorizmin ən qəddar örnəklərindən biri, insanlığa qarşı indiyəcən törədilmiş cinayətlərin ən dəhşətlisidir".



Natiqin sözlərinə görə, əgər o günlərdə ordumuz güclü, qüdrətli olsaydı, təbiidir ki, belə dəhşətli faciə baş verməzdi. "Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində bu gün ordumuz dünyanın inkişaf etmiş ölkələrin orduları sırasındadır. Və düşmən təcavüzünü dəf etməyə, torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadirdir. Uğurlu aprel döyüşləri dediklərimizə bir daha sübutdur".

Sonra Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, pedaqoqika üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədov, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi Mərkəzinin direktoru, siyasət üzrə fəlsəfə doktoru Asif Usubəliyev, Azərbaycan Okinava Qoçiryu-ryu Karate-do və Kobudo növləri Federasiyasının Prezidenti, əməkdar bədən tərbiyəsi və idman xadimi Tarverdi Allahverdiyev, C.Naxçıvanski adına Hərbi Liseyin kursantı Bəhmən Məhəmmədli və başqaları da Xocalı faciəsinin ağrı-acılarından danışdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

---




## Bu qan yerdə qalmayacaq!

*(Xocalı şəhidlərinə)*

Vətənin haray səsidir,
Bu qan yerdə qalmayacaq!
Anaların naləsidir,
Bu qan yerdə qalmayacaq!

Torpaqdan güc alacağıq,
Birik, bir də olacağıq,
Tarixə səs salacağıq,
Bu qan yerdə qalmayacaq!

Düzdən dağa çıxacağıq,
Selə dönüb axacağıq,
Neçə sədlər yıxacağıq,
Bu qan yerdə qalmayacaq!

Ocaq olar közümüz də,
Güllər açar düzümüzdə.
Əsgər olar sözümüz də,
Bu qan yerdə qalmayacaq!

"Azərbaycan" - deyə-deyə,
Qüdrətə dağlar baş əyə.
Köklənmişik qələbəyə,
Bu qan yerdə qalmayacaq!

**Ramazan SƏMƏROĞLU**

## "Fikrimdə, xəyalımda hiss edirəm ki, atam Xocalıdadır"..

*Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı siyasətinin iki əsrdən artıq tarixi vardır. Azərbaycan xalqı belə faciələrdən biri ilə 1992-ci ilin qarlı, şaxtalı qışında Xocalıda üzləşdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar xalqımıza müraciətində dediyi "Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur" - kəlamında faciə bütün mahiyyətiylə ifadə olunub. İnsan təsəvvüründə belə canlandırmaqda çətinlik çəkir ki, tarixdə analoqu olmayan belə qəddarlıq və vəhşilik XX əsrin sonunda dünyanın gözü qarşısında törədilib.*

O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Aradan 25 il keçsə də, bu yara qaysaq bağlamayıb.

Xocalı faciəsində yaşananları bir dəqiqə belə unutmayan canlı şahidlərdən biri - Əminə Mahmudova ilə söhbətləşirəm. Baxışları məchulluğa zillənən, göz yaşlarını saxlaya bilməyən Əminə xanım 1977-ci ildə Xocalıda anadan olub. O, xatirələrini vərəqləyərək, - bu faciə misli görünməmiş bir dəhşət idi, - deyir. Bir dəhşət ki, üstündən 25 il keçməsinə baxmayaraq hələ də iniltisi yaddaşımdan getməyib. - O gecə xocalılıların ürəklərinə sönməyən od vuruldu. Anabaladan, bacı-qardaşdan ayrı düşmüşdü o gecə. Düşmən qocaya, xəstəyə, qadına, körpəyə aman vermədi. Uşaqları valideynlərinin gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirirdilər. Neçə-neçə qeyrətli, Vətənini, torpağını canından əziz bilən yurddaşımızı erməni qəbirləri üstündə qurban kəsdilər. Nə qədər adam dəhşətdən canını qurtarıb ayağı yalın, başı açıq meşələrə, dağlara üz tutdu, çoxusu soyuqdan dondu, qar uçqunlarına düşdü. Hara gedəcəyini, kimdən imdad diləyəcəyini bilməyən uşaqların doğmalarının meyitləri yanında ağlaşmaları dəhşət idi. Dünyadan



xəbərsiz körpənin gözlərini əbədilik yummuş anasının buz kimi soyuq sinəsində süd axtarmasını görən kəs varından yox olurdu... Həmin gecə Xocalı sakinlərinin üzləşdikləri müsibətlərin hansı birini deyim?

Sərt qış gecəsində Xocalı elə bir dəhşət yaşadı ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. O gün Azərbaycanın tarixinə qanla yazıldı.

Əminə xanım da yaxınlarının böyük bir qismini bu faciədə itirib.

"Ağdam rayon məscidinə meyitlər gətirmişdilər, orada atamı axtarırdım. Atam Əhliman Mahmudov özünümüdafiə batalyonunda döyüşürdü. Özlüyümdə atamın meytinin burada olmaması üçün dualar edirdim... Atamın meyitini tapmadıq. Hər gün, hər saat fikrimdə də, xəyalımda da atamı düşünürəm, elə bilirəm ki, o Xocalıdadır"...

Əminə xanım hər dəfə Xocalı faciəsinin ildönümü günündə "Ana harayı" abidəsini, Milli Qəhrəman Çingiz Mustafayevin məzarını ziyarət etdiyini bildirdi. Çünki məzarı olmayan atasının da adı bu abidədə yer alıb. Analoqu olmayan bu faciənin dünya ictimaiyyətinə çatdırılmasında məhz Çingiz Mustafayevin misilsiz zəhməti olub. Milli Qəhrəmanımızın lentə aldığı dəhşətli kadrlar ermənilərin törətdikləri vəhşiliklərin sübutudur.

O məşum gecədə Əminə xanımın ana olmağa hazırlaşan bacısı və yoldaşı da yaralanır. Atası onları Ağdama çatdırandan sonra yenidən Xocalıya qayıdır, əhalinin xilas olunmasında iştirak edir.

- Xalam qızının ana olmasına iki ay qalmışdı, - deyir müsahibim. - O, meşədə atasının dizləri üstündə donaraq öldü, atasının don vurmuş ayaqlarını kəsdilər. Valideynləri dünyalarını dəyişənədək hər gün məzarı olmayan Gülzarı səslədilər. Düşmənlər başqa bir qohumumu ailəlikcə təndirə doldurub yandırdılar. Atamın nə öldüyündən, nə də sağ qaldığından bir xəbərimiz olmadı... Faciədən bir gün sonra 40 nəfər əsir dəyişdirildi. Onlara olmazın zülm verilmişdi. Danışırdılar ki, dəyişdirməzdən əvvəl onlara üzərinə nə isə damızdırılmış qənd veriblər. Nəzarət ediblər ki, sona kimi yesinlər. Hamısı az bir müddətdən sonra qaraciyər serrozundan dünyalarını dəyişib...

Bu gün ordu sıralarında qulluq edən Əminə xanım üç oğul anasıdır. Övladlarını Vətəninə, millətinə layiq bir övlad kimi böyüdür. Bu ailə də atababa ocağına qayıdacaqları günü həsrətlə gözləyir. O gün uzaqda deyil...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Vətənpərvərlik

# Bu günün şagirdi - sabahın əsgəri

*Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, elinə-obasına hörmət, soykökünə, milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasına həmişə həyati əhəmiyyətli məsələ kimi yanaşıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, onda inam hissini gücləndirir.*

Ümummilli lider Heydər Əliyev:

*"Hamımızın ümumı vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir"*



Ən ali hisslərdən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə-obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək deməkdir. Bu hiss hər kəsə ana beşiyindən aşılansa da, sonradan təlim və tərbiyə yolu ilə daha da möhkəmlənir. Böyüməkdə olan nəslə vətənpərvərlik hissinin aşılanmasında məktəb kollektivlərinin üzərinə böyük yük düşür.

Cəbhə bölgəsinə ezamiyyətimiz zamanı orta məktəblərdən birində - Mahir Ələkbərov adına Tovuz şəhər tam orta məktəbində olduq. Məktəbə daxil olanda Mahir Ələkbərovun böyüdülmüş şəkli və onun haqqında qısa məlumat diqqətimizi cəlb etdi. Öyrənirik ki, Tovuz rayonunda anadan olan Mahir Bakı Ümumqoşun Komandirlər Məktəbini bitirdikdən sonra bir müddət Əfqanıstanda qulluq edib və "Qızıl Ulduz" ordeni ilə təltif olunub.

Sonra dəhlizin sol tərəfində Tovuzdan olan 4 Sovet İttifaqı Qəhrəmanı və 2 Milli Qəhrəmanın şəkillərinə da nəzər saldıq.

Məktəbin direktoru Şərqiyyə Ələkbərova gəlişimizin mahiyyətini bildikdən sonra həvəslə söhbətə qoşuldu: "Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması təhsil işçilərinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Məqsədimiz uşaqlara təhsil verməklə yanaşı, həm də onları bir vətəndaş kimi yetişdirmək, Vətənə, torpağa sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq ruhu aşılamaqdır. Ölkə Prezidenti İlham Əliyev öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulayaraq, bu işin dövlətin təhsil və gənclər siyasətinin prioritet məsələlərindən biri olduğunu demişdir: "Biz böyüməkdə olan nəslin vətənpərvərlik, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır".

Məktəb direktoru söhbət zamanı qeyd etdi ki, şagirdlərin hərbi vətənpərvərlik yönümündə tərbiyəsi ümumilikdə təlim-tərbiyə işinin ayrılmaz tərkib hissəsidir. "Şagirdləri Vətənimizin şərəfini və azadlığını qoruyub saxlamış Azərbaycan Silahlı Qüvvələrinin şanlı tarixi, qəhrəman döyüşçülərimizlə yaxından tanış etmək vacibdir. Onlara doğma ordumuza məhəbbət aşılamaq, Vətənimizin müdafiəsi uğrunda mübarizəyə hər dəqiqə hazır olmaq əzmini qüvvətləndirmək hərbi vətənpərvərlik tərbiyəsinin ən mühüm istiqamətidir. Gərək, hər bir gənc doğma Vətənin müdafiəsi naminə onu çətinliklər gözləsə də, əlindən gələni əsirgəməsin, onu yalnız şərəfli hərbi xidmət maraqlandırsın. Məhz buna görə də hərbi vətənpərvərlik tərbiyəsi dövlət siyasətinin mühüm bir sahəsinə çevrilib".

Məktəb direktorunun məktəbdən kənar və sinifdən xaric işlər üzrə müavini Vüqar Qasımov da şagirdlərin hərbi vətənpərvərlik hisslərinin artırılmasında ordu həyatı ilə sıx ünsiyyətin mühüm rol oynadığını bildirdi. Onun sözlərinə görə, hərbi dərslər zamanı şagirdlərin hərbi hissələrə aparılması və onların əsgərlərlə təmasda olması yeniyetmələrin sabahın əsgərləri kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. "Hərbi hissələrdə olmaq, əsgərlərlə bir gün keçirmək məktəblilər üçün xüsusən maraqlı olardı".

Məktəb direktoru da Vüqar müəllimin fikirlərini təsdiqlədi: "Yaxşı olar ki, şagirdlərimiz ordu həyatını bu həyatı yaşayan adamların dilindən eşitməsinlər. Birbaşa əsgərlərlə, zabitlərlə və hətta silahlarla, hərbi texnikalarla ünsiyyətdə olsunlar. Bu kimi tədbirlərin çox böyük əhəmiyyəti olacaq."

Söhbətlərimizi yekunlaşdırıb gənclərin çağırışaqədər hazırlıq kabinetinə daxil oluruq. Hərbi rəhbər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almış və ailə vəziyyəti ilə əlaqədar olaraq ordu sıralarından tərxis olunan, ehtiyatda olan baş leytenant Aytən Ramazanovadır. Aytən xanımla sinifdəki əyani vəsaitlərə göz gəzdiririk. Atışın nəzəri əsasları, xəritəsiz ərazidə səmtlənmə, Hərbi And, ilk tibbi yardım, qan yaddaşımız kimi plakatlar diqqətimizi cəlb edir.



Söhbət zamanı Aytən xanım da qeyd etdi ki, orta ümumtəhsil məktəblərində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinin keyfiyyətinin artırılmasında əsas məqsəd ölkənin müdafiəsinə gəncləri psixoloji cəhətdən hazırlamaqdır. Onun sözlərinə görə, bu fənn vasitəsi ilə yeniyetmələrə hələ erkən çağlarında ikən Vətəni müdafiə etmək üçün hərbi hazırlıq keçilir, məlumatlar verilir, hərbi silahlarla da tanış olurlar.



Məktəblilər arasında hərbi-idman oyunlarının keçirilməsinin yeniyetmələrdə vətənpərvərlik hisslərinin aşılanması baxımından əhəmiyyət kəsb etdiyini vurğulayan A.Ramazanova dedi ki, "Cəsurlar", "Şahin" kimi yarışlar şagirdlərdə cəsarətliliyi, çəldliyi, mübarizliyi formalaşdırır. "Təbii ki, burada bir-biri ilə rəqabətdə olan 3-5 komanda iştirak edirsə, yeniyetmələrdə qələbə qazanmaq əzmi formalaşır. Bu cür oyunlar Azərbaycanda hər il yüksək səviyyədə keçirilir. Onu da qeyd etmək istərdim ki, komandamız "Şahin" hərbi-idman oyunlarında bölgəmizi təmsil etdi və ölkə birinciliyində layiqli yerlərdən birini tutdu. Bu cür hərbi oyunlar zamanı məktəblilər arasında kütləvi şəkildə həm bacarıqlar formalaşdırılır, həm də düşüncələrdə Vətənin müdafiəsinin müqəddəs, şərəfli iş olduğu ideyası hakim kəsilir".

Dərs prosesi zamanı şagirdlərdən Tural İbrahimov, İlahə Əliyeva, Ələkbər Cəfərov diqqətimizi cəlb edir. Uşaqların sual-cavab prosesində fəal iştirak etməsi və Ələkbər Cəfərovun Hərbi Andı əzbər söyləməsi gəncliyimizə, əslində, gələcəyimizə olan inamımızda yanılmadığımızı sübut etdi. Tural İbrahimov bizimlə söhbətində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov haqqında danışdı, onun cəbhə xəttində göstərdiyi şücaətdən söhbət açdı. "Mən də gələcəkdə hərbçi olacam" deyən Turalın söhbətinə görə, Vətənin qorunduğu səngərlərə gedən yol məktəb partasından başlanır, yəni, bu günün şagirdi sabahın əsgəridir.

"Şahin" hərbi-idman oyunlarının iştirakçıları olan 11-ci sinif şagirdləri Adil Sadıqov və Nicat Hüseynovla söhbətləşirik. Onlardan öyrənirik ki, Tovuz rayonunda "Şahin" hərbi-idman və turizm oyununun zona mərhələsinin yarışları keçirilib. Bu yarışda qalib gələn Mahir Ələkbərov adına tam orta məktəbin komandası respublika turnirində iştirak etmək şansı qazanıb. Gənclər bildirdilər ki, yarış zamanı komandalar sıra hazırlığı, maneənin dəf olunması, hədəfə qumbara atmaq və digər hərbi-idman növlərində qüvvələrini sınayıblar. Qalib komanda doğma kollektivə mükafatla qayıdıb.

Məktəbdə müəllim və şagirdlərlə söhbətimizdən bir mətləb hasil oldu ki, bu gün Azərbaycanda ordu dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı təminatçısıdır. Eyni zamanda, ordu beynəlxalq sülhü möhkəmləndirmək, fəlakətlər zamanı yardım etmək və digər müstəsna hallarda vacib tapşırıqları həyata keçirmək missiyasını öz üzərinə götürür. Deməli, ordu Vətənin ərazisini, müstəqilliyini, suverenliyini qorumaqla dövlətin tərkibində ən vacib struktur olduğunu sübuta yetirir.

Ona görə də bütün məktəbin kollektivinə gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi və onlara vətənpərvərlik hisslərinin aşılanması yolunda uğurlar arzulayaraq ayrılırıq. İnanırıq ki, igid məzununun adını daşıyan məktəb növbəti Mahirləri, Mübarizləri, Çingizləri yetişdirəcək.

**Polkovnik-leytenant Arif PƏNAHOV,**
**Kapitan Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

Ordu və cəmiyyət

# “Xalqımıza böyük Qələbənin sevincini arzulayıram”

*1992-ci il fevralın 25-dən 26-sına keçən gecə Xocalıda baş verənlər xalqımızın yaddaşına əbədi həkk olundu. 613 soydaşımızın xüsusi amansızlıqla qətlə yetirildiyi, yüzlərin yaralandığı o qış gecəsinin dəhşətli anları hər bir azərbaycanlının qan yaddaşına elə yazılıb ki, bu hadisələri kiminsə unutmasına inanmaq qeyri-mümkündür.*

*Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədri Şamil Sabiroğlu ilə müsahibəni oxucularımıza təqdim edirik.*



***- Şamil müəllim, 25 il əvvələ - Xocalı faciəsinin baş verdiyi o zaman kəsiyinə qayıtmağınızı, daha doğrusu, Xocalı ilə bağlı xatirələrinizi bölüşməyinizi xahiş edirəm.***

- Mən, əslində, Salyan rayonunda anadan olmuşam. Ancaq tale elə gətirdi ki, Xocalı həyatımın tərkib hissəsinə çevrildi. 1990-cı ilin martında Xocalıya rayon-şəhər statusu verildi. Bundan sonra Xocalıda tikinti-abadlıq işlərinə böyük ehtiyac vardı. Mən həmin ərəfədə Laçında tikinti-abadlıq işləri aparan briqadanın tərkibində idim. O zaman Respublika komsomolunun birinci katibi olan Sahib Ələkbərovun yanına getdim. Sahib müəllimlə görüşdük, razılaşdıq və bir dəstə yaratdıq. Dəstənin adını "Şah İsmail Xətai adına könüllülər dəstəsi" qoyduq. Beləcə, yollandıq Xocalıya.

O zaman Azərbaycan hələ müstəqil deyildi. Orada SSRİ Daxili İşlər Nazirliyinin xüsusi qüvvələri var idi. Amma hər halda Xocalıda tikinti-abadlıq işlərində yerli əhaliyə kömək etməyə çalışırdıq. 1991-ci ildən "Səhər" gündəlik informasiya qəzetinin Qarabağ bölgəsi üzrə müxbiri təyin olundum. 20 Yanvar hadisələrindən sonra Xocalıda insanlarda bir ruh düşkünlüyü var idi. Ona görə də indiki millət vəkili Elman Məmmədovla, Xocalı təhsil şöbəsinin müdiri Murad Şükürovla görüşdüm, dedim ki, 28 May bayramını qeyd edək. Rusiyanın təsir dairəsindən çıxmayan Azərbaycanda bu addımı atmaq o qədər də asan deyildi. Bayramın keçirilməsi üçün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi Viktor Polyaniçkodan da razılıq ala bildim. Ağdamdan ansambl götürüb Xocalıya qayıtdıq. Tədbir çox yüksək səviyyədə keçirildi. Hərbi hissədən ayrılan 100-ə yaxın əsgərin vasitəsilə Xocalı şəhər stadionu üzük qaşı kimi əhatəyə alındı. Hətta Badara kəndindən, Daşbulaq tərəfdən gələn ermənilər keçirilən tədbiri maşınlarından təəccüblə izləyirdilər. Çox təəssüflər olsun ki, həmin kadrlar şəhid zabitimiz Əlif Hacıyevdə qaldı. Məni sevindirən ən mühüm amil üçrəngli Azərbaycan bayrağını həmin tədbirdə dalğalandırmağımız oldu. Sonra bir müddət Xocalı rayonunun Cəmilli kəndində müəllim işlədim. Beləcə, Xocalıya bağlandım.

***- Bildiyimə görə, Xocalı faciəsinin mətbuata dəqiq və qərəzsiz çatdırılması işində də az zəhmətiniz olmayıb...***

- Bəli, 1991-ci ildən "Səhər" qəzetində fəaliyyətə başladım. Eyni zamanda "İki sahil" qəzeti ilə ictimai əsaslarla əməkdaşlıq etdim. Hadisə haqqında ilk məlumat və fotoların müəllifiyəm. O günləri xatırlamaq mənim üçün çox çətindir. Hadisədən sonra meyitlər qalmışdı çölün düzündə. Sağ olanlar da yaralıları və əl-ayağını don vurmuşları xilas etməyə çalışırdılar. Sonrakı iki gün ərzində artıq meyitlərin üzərində zorakılıq əlamətlərini görmək mümkün idi. Ermənilər bununla insanlarda müəyyən xof yaratmağa çalışmışdılar. Xocalının işğal olunması xəbərini Ağdamdan ratsiya ilə ağlaya-ağlaya "Səhər"in baş redaktor müavini Hidayət Elvüsala çatdırdım. Verdiyim informasiyada xırda təhriflər olsa da, "Səhər" qəzetinin səhifələrində öz əksini tapmışdı. Bundan sonra qəzetin rəhbərliyinə müəyyən təzyiqlər də oldu.

***- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli səhifəsi olan Xocalı soyqırımının tanınması barədə nə deyə bilərsiz?***

- Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının tanınmasının əsas təşəbbüskarı olub. Hələ Prezident səlahiyyətlərini həyata keçirərkən erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının çağırılması tələbi ilə bu qurumun rəhbərliyinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdi. 1994-cü il fevralın 24-də Milli Məclis fevralın 26-sının "Xocalı soyqırımı günü" kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə bu soyqırımına ilk dəfə siyasi qiymət verdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əsrin bu böyük faciəsi siyasi-hüquqi qiymətini aldı.

***- Şamil müəllim, Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin xətti ilə Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında hansı işlər görülüb?***

- 1992-ci ildən bu günədək Xocalı həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı çox işlər görmüşük. Ancaq bir dəfə dostlarımızdan biri təklif etdi ki, bu sahədə daha sistemli fəaliyyət göstərmək üçün qeyri-hökumət təşkilatı yaradaq. Bununla da Xocalı Soyqırımını Tanıtma İctimai Birliyini qeydiyyatdan keçirdik. Onu da etiraf edim ki, təşkilatımız Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu sahədə apardığı işə bir dəstək kimi yaranıb. Rusiyada, Türkiyədə, Almaniyada və digər ölkələrdə Xocalı ilə bağlı tədbirlər keçirmişik. Etiraf edirəm ki, dövlətin dəstəyi olmasaydı, biz bu işləri görə bilməzdik, 70-dən çox ölkədə tədbirlər keçirmək asan deyil.

Dövlətin bu istiqamətdə fəaliyyəti gündən-günə güclənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisəyə görə məsuliyyətin Ermənistanın kriminal rejiminin üzərində qaldığını bildirərək deyib: "Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür".

"Xocalıya ədalət" beynəlxalq kampaniya Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə daha da genişlənib.

***- Heydər Əliyev Fondunun "Xocalıya ədalət" kampaniyası çərçivəsində gördüyü işlər barədə sual ünvanlamağı nəzərdə tutmuşdum. Məni qabaqladınız...***

- Bəli, Xocalı həqiqətlərinin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu danılmazdır. Fondun məqsədyönlü fəaliyyəti nəticəsində dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, nüfuzlu qurumlar bəşəriyyətə qarşı törədilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyir. Heydər Əliyev Fondu Xocalı soyqırımı ilə bağlı xarici ölkələrdə 100-ə qədər sərgi təşkil edib.

***- Xocalı sakinlərinin gündəlik qayğıları ilə maraqlanırsınızmı?***

- Bəli, onlarla tez-tez görüşürük. Əməkdaşlarımız Mənsurə Sultanovanın, Günel Yusifqızının və başqalarının köməyi ilə 30 ailənin pulsuz tibbi müayinəsini təşkil etmişik. Eyni zamanda "Asan radio" ilə birgə layihə həyata keçirəcəyik. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Soyqırım və terrora yox deyirik" layihəsi çərçivəsində film çəkilməsi planlaşdırılır. Filmin reallaşdırılması üçün Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla, Milli Məclisin deputatları Qənirə Paşayeva, Adil Əliyev, Flora Qasımova, Elman Məmmədov və akademik Vəli Əliyevlə birgə məsləhətləşmələr olub. Artıq filmin montaj işləri sona çatmaq üzrədir. Bu yaxınlarda təqdimatı gözlənilir. Film, həmçinin Türkiyənin 4 şəhərində - Ankarada, İzmirdə, Eskişəhərdə, Boluda da təqdim olunacaq.

Eyni zamanda Almaniyaya səfərimiz var. Bu yaxınlarda Sumqayıt Paralimpiya Mərkəzində müxtəlif idman növləri üzrə yarış keçirildi. Həmin yarışda 200 idmançı iştirak etdi. Bundan başqa Xocalı sakinlərinin müxtəlif televiziya kanallarına müsahibələrini təşkil edəcəyik.

***- Şamil müəllim, bu sahədə Müdafiə Nazirliyi ilə hansı əlaqələriniz var? "Azərbaycan Ordusu" vasitəsilə Silahlı Qüvvələrin şəxsi heyətinə arzularınızı da öyrənmək yerinə düşərdi.***

- "Azərbaycan Ordusu" qəzeti mənə çox doğmadır. Müəyyən bir zaman kəsiyində o qəzetdə işləmişəm. Cənab general-polkovnik Zakir Həsənov Müdafiə naziri təyin olunduqdan sonra orduda çox böyük dəyişikliklər baş verib. 2015-2016-cı illərdə Yeni Yurd Sosial İctimai Birliyinin sədri Mahirə Əsədova ilə hərbi hissələrdə olmuşuq. Olduğumuz bütün hərbi hissələr ən yüksək standartlara cavab verir, əsgərlərimizin xidməti üçün ordu rəhbərliyi tərəfindən hər cür şərait yaradılıb. Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi qulluqçuların maddi-texniki təminatına da həmişə qayğı göstərir. Səfərlərimizin bəziləri "Açıq qapı" gününə təsadüf etdiyindən, gördüklərimizə və valideynlərlə olan söhbətlərimizə əsaslanıb deyə bilərəm ki, bu gün əsgərlərin ixtiyarına müasir əsgər yataqxanaları, əsgər yeməkxanaları və s. verilib. İndi Azərbaycan əsgərinin bir işi qalıb - Ali Baş Komandanın əmri ilə əzəli torpaqlarımızı işğaldan azad etmək, Qələbə sevincini xalqımıza yaşatmaq. Azərbaycan bayrağının Qələbə günündə Şuşada, Xankəndidə və digər işğal altında olan torpaqlarımızda dalğalandırılması ən böyük istəyimizdir. Xalqımıza o günü arzu edirəm.

***- Müsahibəyə görə sağ olun.***

**Müsahibəni apardı:**
**kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Alimlər yaşayış üçün yararlı ola bilən ekzoplanetlər aşkarlayıblar



Fevralın 22-də amerikalı və belçikalı astronomlar Dolça bürcündə Yerə bənzər 7 ekzoplanetdən ibarət sistemin aşkarlandığı barədə bəyanatla çıxış ediblər.

NASA-nın elmi bölməsinin rəhbəri Tomas Surbuhenin sözlərinə görə, TRAPPIST-1 adlanan tənha ulduzun ətrafında dövr edən bu planetlər yaşayış üçün əlverişli şəraitə malik ola bilər. Onlardan üçü səthində maye şəkilli suyun toplana biləcəyi "həyat zonasında" yerləşir və əlverişli atmosfer şəraitində bu planetlərin hər birində su ola bilər. Həmin ekzoplanetlər Yer kürəsindən 39 işıq ili məsafəsində aşkar olunub.

### İraq ordusu strateji əhəmiyyətli əraziləri azad edib



İraq ordusu Mosul şəhəri uğrunda gedən döyüşlərin üçüncü günündə strateji baxımdan əhəmiyyətli Əbu Seyf rayonunu İŞİD silahlılarından azad edib.

Əbu Seyfin azad olunması hökumət qüvvələrinə Mosul aeroportuna və şəhərin sıx məskunlaşmış qərb ərazilərinə nəzarət etməyə imkan verir. Lakin şəhərdəki tunellərdə gizlənən silahlıların müqaviməti hələ də davam edir.

### “Rosneft”in mənfəəti 49 faiz azalıb



Rusiyanın ən böyük neft şirkəti olan "Rosneft"in xalis mənfəəti keçən il 2015-ci illə müqayisədə 49 faiz azalaraq 181 milyard rubl (təxminən 3,1 milyard dollar) olub.

Bu barədə şirkətin məlumatında deyilir. Bildirilir ki, şirkətin mənfəətinin azalmasına səbəb ötən ilin birinci yarısında neftin qiymətinin aşağı düşməsidir.

"Rosneft"in 2016-cı ilin son rübündəki xalis mənfəəti isə 2015-ci ilin eyni dövrünə nisbətən 100 faiz artaraq 26 milyard rubldan 52 milyard rubla çatıb. Ötən il şirkətin ümumi satış gəlirləri 10 faiz azalaraq 4,9 trilyon rubla geriləyib. 2016-cı ilin sonuncu rübündə isə "Rosneft"in gəliri əvvəlki ilə nisbətən 21,4 faiz artaraq 1,4 trilyon rubl təşkil edib.

### Pakistanda partlayış nəticəsində altı nəfər həlak olub



Pakistanın Laxor şəhərindəki ticarət mərkəzində baş vermiş partlayış nəticəsində 6 nəfər həlak olub, 15 nəfər yaralanıb.

Fevralın 23-də səhər saatlarında baş verən partlayış nəticəsində binanın bir hissəsi uçub, qonşu binalara ziyan dəyib.

Polis hadisənin səbəblərini araşdırır. İlkin məlumata görə, binada generator partlayıb. Hadisənin terror aktı olması da istisna edilmir.

### Suriya müxalifəti Əl-Bab şəhərinin İŞİD-dən azad olunduğunu bildirir



Suriya müxalifəti Əl-Bab şəhərini İŞİD qruplaşmasından tamamilə azad edib. Bu barədə Azad Suriya Ordusunun (ASO) rəsmi nümayəndəsi məlumat verib. Türkiyə Silahlı Qüvvələrinin dəstəklədiyi Azad Suriya Ordusu şəhər mərkəzinə nəzarəti tam ələ keçirib. Hazırda burada qruplaşma tərəfindən yerləşdirilən partlayıcı vasitələrin təmizlənməsi işi aparılır.

Agentlik "Fərat qalxanı" əməliyyatının 184 günü ərzində 1900 kvadratkilometrdən çox ərazinin terrorçulardan təmizləndiyini, ASO-nun Türkiyə sərhədindən Suriyanın içərilərinə doğru 39 kilometr irəlilədiyini bildirir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU




*Ovqat*

# Bu əsəri Azərbaycan əsgəri yazıb

*Ötən ilin yazından bu yana ürəyimiz də "Lələtəpə!", "Bayraqtəpə!" deyir, dilimiz də. Bu adlar ömrümüzü Böyük Qələbəyə kökləyib. Azərbaycan əsgəri yaxın vaxtlarda məmləkətimizə bu Qələbənin də sevincini yaşadacaq. "Bayraqtəpə" kitabı bu inamın söz tarixidi...*



Məzmunu, mahiyyəti Azərbaycan əsgəri deyən, Azərbaycan əsgəri adının qüruruna söykənən kitabdı bu kitab, ömrünü xalq üçün, millət üçün, dövlət üçün, dövlətçilik üçün işıq edənlərə qədərsiz ehtiramdı bu kitab. Bu kitab tarix haqqında bədii-publisistik kitabdı.

2016-cı ilin aprelinəcən Adsız yüksəklik adlanırdı. Azərbaycan əsgəri ona təzə ad verdi: Bayraqtəpə. Zirvəsində ucalan bayrağa görə, o bayrağın göy üzünə yayılıb möhtəşəmliklə dalğalanmasına görə. "Bayraqtəpə" Bayraqtəpə adlı hünər yüksəkliyinin sözlə yaşadılacaq zərrəsidi. "Əsgərlərimizin gücü torpaqdadı, səngərdədi..." - düşünmüşəm. Bu düşüncələrə sığınıb yazmışam "Bayraqtəpə"ni. Könlüm misra-misra Bayraqtəpənin sinəsinə sarılıb. Ürəyim dənizləşib, həvəsim sahilləşib, marağım dağ biçimində təpələşib:

Ürək dəniz,
həvəs sahil,
maraq təpə...
Könlümüzün
sultanısan,
Bayraqtəpə!

Bayraqtəpədən başlanan cığırlar yola, yollar Şuşaya, Kəlbəcərə, Laçına, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana aparacaq. "Bayraqtəpə"ni bu inam yazdırıb mənə...

Cəbhə xəttində "Bayraqtəpə" kitabının təqdimatı da bu inamın təzahürüdü.

Tədbiri Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamını xatırladır: "Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir". Sonra kitabın tarixiliyindən, bədii məziyyətlərindən, yeniyetmələrin, gənclərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli olacağından danışır. Zabitlərin maraqla dinləməsi mənə könül xoşluğu verir. Təkcə kitaba görə yox, kitabın mahiyyətinə maraq, sayğı ürəyimi tellәndirir...

Ön xətdə xidmət edən zabitlərin əhatəsindəyəm. Aprel döyüşlərində iştirak edənləri də var. Onlara iştirakçısı olduqları əməliyyatdan nə danışım? Onlar danışmalıdı, mən dinləməliyəm. Böyük Qələbədən sonra da kəlmələşəcəyik. Qələbə ovqatıyla...

"Hamımız bir Günəşin zərrəsiyik" misrasını xatırlayaq. O günəş Vətəndi. O Günəş üçün xidmət edirik, o Günəşə xidmət edirik. "Bayraqtəpə" bədii-publisistik kitabını Bayraqtəpə qələbəsini qazanan əsgərlərə, zabitlərə ədəbi hesabat bilirəm. Bayraqtəpə əsərini hünərinizlə, qətiyyətinizlə, Vətən sevginizlə siz yazdınız, tabeliyinizdə olan əsgərlər yazdı. Mən, sadəcə, sizin yazdıqlarınızın bir zərrəsini sözə gətirmişəm. Azərbaycan əsgərinə xitabən,

...şəhidlərin
Vətən, torpaq sevgisiylə
vuruş, oğul! -
Tarixi bir ədalətin
Var səsiylə vuruş, oğul!

- deyənlərin adından sözə gətirmişəm.

Kitabdan kiçik bir hissəni xatırlayıram: əsgər ürəyindən başlanan yollardan biri məni Bayraqtəpəyə yetirib. Qarşı tərəfə baxanların əhatəsində mən də qarşı tərəfə baxıram. Əli avtomatının qundağını sıxanların ürəyindən keçənlərin bir yozumu var: Qələbə, torpaqlarımızın işğaldan azad edilməsi!...

Könlüm də, duyğularım da ilahi səsə həmişə açıq olub. Sərin-sərin əsən mehin pıçıltısını da ilahi səs bilmişəm, yarpaq titrəyişini də, şimşəyin çaxmasını da, bulağın axışını da, göy üzünün göz yaşını - yağışını da, dağların əsrarəngiz sükutunu da,... O səslər sırasında bir səs apreldən bu yana düşüncələrimizdən üzülmür. Həmin səsi Böyük Qələbə günü də eşidəcəyik. Kaş ki, "Bayraqtəpə" kitabını Azərbaycan əsgərinə həsr edilәcək "Qələbə" kitabının ilk fəsli biləydiniz...

Polkovnik-leytenant Əfqan Əliyev kitabı aprel zəfərinin söz tarixi adlandırır, böyük qürurla Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir fikrini xatırladır: "Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər". "Bayraqtəpə" kitabı Ali Baş Komandanin "Aprel döyüşləri dərsliklərə salınmalıdır" fikrinin işığında yazılıb.



Kapitan Amil Hüseynovun qürurla, sevgilərlə dediklərini də təkcə kitaba deyil, Azərbaycan əsgərinə sayğı bilirəm: "Bu kitabı biz də oxuyacağıq, övladlarımız da. Əsgərlərimizin hünəri, rəşadəti, qəhrəmanlığı onların da yaddaşına yazılacaq. Aprel zəfəri həm kitablarda, həm də yaddaşlarda yaşadılacaq!"

Kapitan Emin Şirinovun dedikləri dönməz bir inamın təzahürüdü: "Belə kitablar gənclərin mənəvi hazırlığında mühüm vasitələrdəndir. Mən də, digər zabit yoldaşlarim da bu kitabdan şəxsi heyətin mənəvi-psixoloji hazırlığında istifadə edəcəyik"...

...Bir əsgər çəkingənliklə kitab istəyir: "Tərxis olunmuş əsgər yoldaşım Nemət İmanova göndərəcəm. Aprel döyüşlərinin iştirakçısı olub. Nə gizlədim, Qələbə gününün sevincini əsgər olaraq yaşamaq istərdim..." - deyir. Böyük sevgilərlə əsgərə də kitab bağışlayıram. Bir anlığa Şuşanı xatırlayıram. Cıdır düzündə dalğalanan bayrağımızın kölgəliyində hiss edirəm özümü...

...Neçə kitabım nəşr olunub. Hamısı mənə könül xoşluğu verib. Etiraf edirəm ki, "Bayraqtəpə" kitabının özünü də, təqdimatını da ömrümün bundan beləsinin göyqurşağı bilirəm...

Zabitlərdən biri mənə təşəkkür edir. Səmimiyyətlə "Sizə çatası təşəkkürü mənə ünvanlamayın. Qazandığınız qələbəyə görə zərrə misallı xidmətdir. Bayaq dediyim kimi, bu kitabın müəllifi sizsiniz, mən onu, sadəcə, kağıza köçürmüşəm. Mən də, həmkarlarım da qazanacağınız Böyük Qələbədən daha möhtəşəm əsərlər yazacağıq..."

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İdman

## Azərbaycan idmançısı Rusiyada keçirilən yarışda qalib gəlib



Moskvada MMA üzrə keçirilən "Fights Night Global 59" əlbəyaxa döyüş yarışlarında Azərbaycan idmançısı qalib gəlib.

Fevralın 23-də Qəbələ İdman Klubunun üzvü, MMA üzrə dünya və Asiya çempionu Nəriman Abbasov rusiyalı rəqibi Artur Zaynukovla qarşılaşıb.

Üç raunddan ibarət görüşdə Nəriman Abbasov rinqdə rusiyalı idmançını tam xal üstünlüyü ilə məğlub edərək yarışın qalibi olub.

## Bakının “Azərreyl” voleybol komandası Çempionlar Liqasında növbəti oyununu keçirib



Fevralın 23-də Bakının "Azərreyl" komandası Azərbaycan Voleybol Mərkəzində İstanbulun "Fənərbağça" komandasını qəbul edib.

Rusiyalı baş hakim Aleksandr Pavlovun idarə etdiyi oyunda İstanbul təmsilçisi 3:0 hesablı qələbə qazanıb.

Hesabında 15 xal olan "Fənərbağça" qrup lideridir və növbəti mərhələyə vəsiqəni ötən turda təmin edib. "Azərreyl" 9 xalla ikinci, Polşanın "Dabrova Qornitsa" klubu 6 xalla üçüncü pillədə yer alır. Fransanın "Sen-Rafael" komandasının isə xalı yoxdur.

## Gənc sərbəst güləşçilər arasında qaliblər müəyyənləşib



Bakı İdman Sarayında gənclər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan birinciliyi start götürüb.

Yarışda klub və cəmiyyətlərin yığma komandalarının üzvü olan 1997-1999-cu il təvəllüdlü idmançılar iştirak edirlər. İlk yarış günündə sərbəst güləş üzrə 205 pəhləvan mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən turnirdə Əli Hüseynov (50 kq), Əfqan Xaşalov (55 kq), Xabib Karaçayev (60 kq), Hacımurad Hacıyev (66 kq), Rəşad Yusifli (74 kq), Hacımurad Maqomedsaidov (84 kq), Asxab Həmzətov (96 kq) və Umar İsrailov (120 kq) qalib olublar.

Hər çəki dərəcəsində mükafatalayiq yerlər tutmuş idmançılar medal və diploma yanaşı, AGF tərəfindən pul mükafatı ilə də təltif olunur və yığma komandanın heyətinə cəlb edilirlər.

## İdmançılarımız uşu-sanda üzrə “Moskva ulduzları” turnirində 5 medal qazanıblar



Azərbaycan idmançıları uşu-sanda üzrə "Moskva ulduzları" beynəlxalq turnirində uğurla mübarizə aparıblar.

20-dək ölkənin təmsilçilərinin qatıldığı yarışda altı idmançımız federasiyanın prezidenti Azər Həsənovun başçılığı ilə mübarizəyə qoşulub.

Yarışda yığma komandamızın üzvü Elçin Eminov (56 kq), Ruslan Pirəliyev (60 kq) və Pərviz Abdullayev (75 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Taleh İsayev (70 kq) yalnız həlledici görüşdə uduzaraq ikinci, Rəfael Tarverdiyev (65 kq) üçüncü yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 65<br>Nüsxə 4650 |